2-ci sinif

Aşağıdakı xüsusiyyətlərə malik orqan hansı bənddə ***verilməmişdir***?

1. İnsan bədənində duyğu üzvlərindən biridir.
2. Sözdəki hecaların sayı ən kiçik ikirəqəmli ədədin rəqəmləri cəminə bərabərdir.

A) Burun kiçikdir, amma dünyanı qoxuları ilə kəşf edir.

B) Hər söz dilimizdən başlayır, hər fikir dilimizlə yayılır.

C) Əllər hər gün bir macəraya çıxır, öyrənmək və yaratmaq üçün bizə yol göstərir.

D) Gözlərimiz kiçik pəncərədir, dünyanı oradan görürük.

Əlbir olub bir ayı bir şir ilə,
Ovladılar dovşanı tədbir ilə.
Olmadılar razı onu bölməyə,
Çıxdı iş axır ölüb-öldürməyə

Verilmiş təmsildə bitki mənşəli qidalar ilə qidalanan canlılar hansılardır?

A) Ayı, şir

B) Şir, dovşan

C) Dovşan, ayı

D) Yalnız dovşan

3-cü sinif

. Şagirdlər "*dostluq*" mövzusunda imla yazdılar. Yazdıqları imlada dürüstlük, qayğıkeşlik, sadiqlik, səbirlilik, empatiya, sevgi, ədalət, paylaşmaq, yardımsevərlik, vicdan, tolerantlıq, sayğı sözlərinin hər birini 2 dəfə işlətdilər. Şagirdlərin yazdıqları imlada sözlərin cəmi əlifbamızdakı hərflərin sayının iki misli qədərdir. Şagirdlər əlavə neçə sözdən istifadə etmişlər?

A) seventy
B) sixty
C) fifty
D) forty

Yunan dilindən götürülmüş matema adlanan bu sözün mənası bilik, öyrənmək, öyrətmək deməkdir. İngilis dilində mathematics, rus dilində matematika, türk dilində matematik adlanan bu söz Azərbaycan dilində fərqli adlanır. Bu sözdə təkrarlanan hərfləri rəqəmlə ifadə etsək *y* 3 yüzlüyü, *i* 4 onluğu, *a* 2 təkliyi bildirir. Alınmış ədəd haqqında hansı fikir doğrudur?

A) Alınmış ədəd 342-dir.
B) Yüzlük mərtəbə qiyməti 300-dür.
C) Yüzlük mərtəbə vahidi 9-dur.
D) Yüzlük mərtəbə vahidi 900-dür.

4-cü sinif

. Verilmiş şərtlərə uyğun gələn söz hansıdır?

- ❖ Kompüterin təməl qurğularından biridir.
- ❖ Ahəng qanununa tabe deyil.
- ❖ Bu sözdəki hərflərin sayı musiqi notlarının sayına bərabərdir.
- ❖ Sözdəki hecaların sayı sait səslərin sayından 3 dəfə azdır.

A) Printer
B) Klaviatura
C) Prosessor
D) Monitor

. Azərbaycan xalq musiqisinin janrlarının sayını saitlərin ümumi sayına vurun. Alınan hasilə kvadratlarda verilmiş rəqəmlərdən qurulan ən böyük ədədlə ən kiçik ədədin fərqini əlavə edin. Cavabı tapın.

7	2	0	3

A) 5309
B) 3956
C) 5063
D) 5310

5-ci sinif

Məzmunu, əsasən, rəqs etməklə ifadə olunan musiqili səhnə əsəridir. Bu söz hərəkət və düşüncələrimizi idarə edən orqanın ilk hərfi ilə başlayır. Bu sözdəki hərflərin sayı ilə musiqi əsərinin ifasını idarə edən musiqiçinin adındakı hərf sayının hasilini tapın.

A) 35
B) 68
C) 45
D) 78
E) 53

Bəzz döyüşünü göstərən ədədin rəqəmləri hasilinin üzərinə ən kiçik natural ədədi əlavə etsək, hansı ədədin kvadratı alınar?

A) 11
B) 13
C) 15
D) 17
E) 19

6-cı sinif

Səyyah məntəqəsindən şərq istiqamətində 3 *km*, şimal-qərb istiqamətində 3 *km*, cənub-qərb istiqamətində yenidən 3 *km* hərəkət etdi. Alınan fiqur haqqında doğru məlumatı seçin.

A) 4 tərəfi, 4 bucağı var.
B) Qapalı fiqur deyil.
C) 3 tərəfi, 3 bucağı var.
D) 180°-lik bucaq alınır.
E) 90°-lik bucaq alınır.

. Qazlar mübadiləsi gedən tənəffüs orqanlarının payları cəmi ilə, ürəyə arterial qan gətirən damarların sayının cəmi aşağıdakılardan hansına uyğundur?

A) Sadə ədəddir.
B) Ən böyük birrəqəmli ədəddir.
C) Tələffüzündə "k-g" əvəzlənməsi baş verir.
D) Hər hansı ədədin kubudur.
E) Qurbağanın ön ətraf barmaqlarının sayıdır.

7-ci sinif

Doğru cavabların sayı ilə ***yanlış*** cavabların sayının fərqini tapın.

1. Mikroskopun kəşfi – Hüceyrənin quruluşu
2. Metallar – C,S,Fe
3. İqlim dəyişiklikləri – quraqlıq
4. Sıxlığın vahidi – *q/sm*
5. Proyektor – çıxış qurğusu
6. Həşdadsər döyüşü – Xürrəmilərin qalibiyyəti

A) 1
B) 2
C) 3
D) 4
E) 5

M – (A + B) · C ifadəsini hesablayın.

1. Ölkəmizin Gürcüstanla olan quru sərhəddi M *km*-dir.
2. Bitkilərin kök sisteminin sayının 3 misli A-ya bərabərdir.
3. Zülalın tərkibində olan elementlərin növ sayı C-yə bərabərdir.
4. Azərbaycan Türk ədəbi dilinin formalaşmasının başladığı əsr B-yə bərabərdir.

A) 404
B) 419
C) 383
D) 502
E) 408

8-ci sinif

"*Bu kitabları oxuyan şagirdə mükafat veriləcək*" cümləsindəki cümlə üzvlərinin sayı aşağıdakılardan hansına bərabərdir?
A) Üfüqün əsas cəhətlərinin sayına
B) Materiklərin sayına
C) Manna dövlətinin yaranması tarixinə
D) 50 q 20%-li məhsuldakı duzun miqdarına
E) Qitələrin sayına

$^{40}_{20}X^{2+}$ ionunda olan neytronların sayının 1 sutkalıq heyvan zülalından alınan enerjiyə hasilini tapın.
A) six thousand fifty four
B) fourteen thousand seven hundred thirty four
C) sixteen thousand eight hundred ninety six
D) ten thousand five hundred fifty four
E) eleven thousand four hundred fifty four

9-cu sinif

. *Hər bir növbəti ədədi özündən əvvəlki iki ədədin cəminə bərabər olan 1,1 başlayan ədədlər ardıcıllığına ..... ədədləri deyilir.*
Nöqtələrin yerinə yazılacaq sözün tərkibində olan kar samitlərin sayı bərabərdir?
A) İnsanın ürəyinin kameralarının sayına
B) Yoğun bağırsağın maksimum uzunluğuna
C) Sol gözü hərəkət etdirən əzələlərin sayına
D) Üst çənədə olan köpək dişlərin sayına (Yetkin insanda diş çəkilmədiyi halda)
E) Qidanın yoğun bağırsaqda qalma müddətinə

"*Böyük Coğrafi kəşflər dövründə okeanların dərinliyini ölçmək üçün ucuna yük bağlanmış kəndirdən istifadə edilirdi. Bu alət lot adlanırdı.*" – cümləsində yiyəlik halda işlənmiş sözlərin sayının insanın döş qəfəsində olan sümüklərin sayına hasilinin 50%-ni tapın.
A) fifty five
B) sixty four
C) thirty four
D) thirty seven
E) seventy seven

10-cu sinif

Yer səthində həqiqi məsafəsi Cabanı döyüşünün baş verdiyi ilə bərabər olan iki məntəqə arasındakı məsafə 1:15 000 000 miqyasında xəritədə *x* *santimetr* olacaq. *x*-ə uyğun doğru fikri müəyyən edin.

A) Əlifbamızda saitlərin sayına bərabərdir.
B) Cümlənin əsas üzvlərinin sayının 2 mislinə bərabərdir.
C) Əlifbamızda samitlərin sayına bərabərdir.
D) Materiklərin sayına bərabərdir.
E) Əsas iqlim qurşaqlarının sayına bərabərdir.

. Prezident "Qarabağ Azərbaycandır və Nida" fikrini bu konfransda səsləndirmişdir. Eyni adı daşıyan relyef vahidi haqqında doğru fikri seçin.

A) Qərbi Avropanın ən yüksək düzənliyi hesab edilir.
B) Okean səviyyəsindən 200 metrə qədər hündürlüyə malikdir.
C) Fiziki xəritələrdə tünd-göy rənglə işarə olunur.
D) Şimali Amerika ərazisində yerləşir.
E) Hündürlüyünə görə yüksəklik hesab edilir.